# Zəngəzur dəhlizi türk dünyasını birləşdirən əsas nöqtədir

***2020-ci ilin ikinci yarısında Azərbaycan tarixi zəfər qazandı. Otuz ilə yaxın düşmən əsarətində olan əzəli torpaqlarımız işğaldan azad edildi. Həm döyüş meydanında, həm də siyasi arenada qazanılan bu zəfər, Azərbaycana ötən əsrin sonlarında itirdiyi torpaqları geri qaytarmaqla yanaşı, həm də yeni geosiyasi və iqtisadi imkanlar yaratdı. Təbii ki, yaranan bu üstün şərait yalnız Azərbaycan üçün deyil, həm də bütövlükdə region üçün canlanma deməkdir. Əlbəttə, bu imkanları daha da artırmaq, bərpa etmək üçün qarşıda görüləcək çoxlu iş var. Müharibənin bitməsi ilə başlayan yenidənqurma işləri göstərdi ki, Azərbaycan bərpa işlərini həyata keçirmək üçün lazım olan iqtisadi gücə malikdir. Artıq qısa zaman kəsiyində bir çox layihənin planlanması başa çatıb.***

Prezident İlham Əliyev müharibədən sonra bölgənin sosial-iqtisadi inkişaf planının hazırlanması ilə bağlı xüsusi həssaslıq göstərmişdir. Bu mənada, bir çox yolların inşasına başlanmışdır. Dövlət başçımız 2020-ci il noyabr ayının 17-də Əhmədbəyli–Füzuli–Şuşa yolunun layihələndirilməsi ilə bağlı sərəncam imzalamışdır. Bu



yol başlanğıc idi!

Azərbaycanın uzun illər düşmən tapdağı altında qalan ərazilərində geniş iqtisadi imkanlar, təbii sərvətlər yatır. Aparılan ilkin tətqiqatlar zamanı, ümumilikdə, 900-ə yaxın yaşayış məntəqəsinin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 131 minə yaxın evin, 1025 məktəb, 798 səhiyyə obyektinin erməni işğalı zamanı dağıdıldığı müəyyən edimişdir. Habelə, 280 min hektar meşə, 1 milyon hektara yaxın məhsuldar torpaq, 1200 kilometr irriqasiya sistemi düşmənin nəzarətinə keçmişdir. Azərbaycanın kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədəri bu ərazilərin payına düşdüyündən, təsərrüfata da külli miqdarda zərər dəymişdir.

Bu və digər təcavüz aktları ilə bağlı indiyədək aparılmış hesablamalara əsasən, Azərbaycana 60 milyard ABŞ dollarından artıq ziyan vurulmuşdur. Təkcə bunlar belə, onu deməyə əsas verir ki, bütün bu ərazilərin yenidən bərpası Azərbaycan üçün böyük önəm kəsb edir. Son 17 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən artıq böyümüşdür. Azərbaycan bölgədə lider dövlətə çevrilmişdir. Aprelin 1-də Prezident İlham Əliyev Dünya Bankının regional direktoru Sebastian Molineusu qəbul edərkən demişdir: “Biz “Doing Business” proqramında mövqeyimizi yaxşılaşdırmağımızla çox fəxr edirik. Biz 191 ölkə arasında 28-ci mövqedəyik. Bu, bizim üçün həqiqətən də mühüm nailiyyətdir”.

Nəzərə alsaq ki, Azərbaycan əhalisinin sayına görə 90-cı, ərazisinə görə 114-cü yerdədir, bu göstərici əldə olunmuş iqtisadi nailiyyətin miqyasını daha aydın və anlaşılan edir. Bütün bunlara, işğaldan azad edilən torpaqlarımızdan əldə olunacaq iqtisadi dəstəyi də əlavə etdikdə Azərbaycanın daha da irəli gedəcəyi danılmaz reallığa çevrilir. Ermənistandan fərqli olaraq, gün keçdikcə inkişaf edən Azərbaycan iqtisadiyyatı qazanılan zəfərin də ən önəmli təməllərindən biridir. İki ölkə arasında olan bu iqtisadi uçurum, Azərbaycanın aradan keçən illəri doğru dəyərləndirdiyini sübut edir. Ölkəmizdə ərazilərin bərpası və yenidən qurulması üçün agentlik yaradılıb. Agentliyin qarşısında duran vəzifələrdən biri də, işğal zamanı öz doğma torpaqlarından didərgin düşən məcburi köçkünlərin ata-baba yurdlarına geri qaytarılmasıdır.

Qazanılan zəfərin ən mühüm məqamlarından biri də, Zəngəzur dəhlizinin yaradılması ilə bağlı əldə olunan razılıqdır. Bu, çox böyük uğur deməkdir.

Prezident İlham Əliyev demişdir: "Müharibənin nəticələrindən biri də, əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli bəyanatda, xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır."

Həmçinin, ölkə başçısı zirvə görüşündəki çıxışında onu da bildirmişdir ki, müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında, hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur, indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən, Ermənistan üçün də...

2019-cu il aprel ayında Çinin paytaxtı Pekində keçirilən “Bir kəmər, bir yol” forumundakı çıxışı zamanı da dövlət başçımız nəqliyyat dəhlizlərinin, ticarət yollarının önəmindən bəhs etmişdi. Bu yolların ölkəmizdən keçməsinin xüsusi önəmindən danışan Prezident İlham Əliyev demişdir: “Azərbaycanın sürətli iqtisadi inkişafı bizə ölkəni transformasiya etməyə kömək etmişdir. Ötən on beş ildə iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Yatırılan 260 milyard dollar həcmində sərmayə bizə ölkəmizi müasirləşdirməyə və müasir infrastrukturu, o cümlədən, nəqliyyat sahəsində infrastrukturu yaratmağa kömək etmişdir. Azərbaycanın çox aşağı səviyyədə xarici borcu var. Bu, bizim ümumi daxili məhsulun, təxminən, 19 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcumuzdan beş dəfə çoxdur. Azərbaycanın bu ilki iqtisadi göstəriciləri artımın olduğunu nümayiş etdirir. Ümumi daxili məhsul 3 faiz artıb, inflyasiyanın səviyyəsi 2,1 faizdir və iqtisadiyyatın şaxələnməsi bizim əsas məqsədlərimizdən biridir. Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq. Azərbaycanda son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan, yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir. Azərbaycanın sərmayə yatırdığı daha bir əhəmiyyətli nəqliyyat layihəsi Şimal-Cənub dəhlizidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edirlər. Buna görə də, müasir infrastrukturun yaradılmasına yatırdığımız investisiyalar, yalnız iqtisadi potensialımızın artırılmasına və bizim dost, tərəfdaş və qonşularımıza xidmət göstərməyimizə kömək etmir, bu, həm də, ticarət, turizm, nəqliyyat sahələrində nadir imkan yaradır və xalqları, ölkələri birləşdirir. Ölkələr bir-birinə bağlanır və bu, sülh və sabitlik amalına xidmət edir.”

Cənab İlham Əliyev əlavə etmişdir ki, Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrilib. Müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla, biz, yalnız ölkəmizi mühüm nəqliyyat mərkəzinə çevirmədik. Eyni zamanda, biz, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. “Bir kəmər, bir yol” təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir...

> ***Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli bəyanatda, xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***




Zəngəzur dəhlizi də məhz bu amala xidmət edəcək. Azərbaycanı dəmir yolu ilə Naxçıvan Muxtar Respublikasına, o cümlədən Türkiyəyə birləşdirəcək bu dəhlizi “Zəngəzur dəhlizi” adlandıran Prezident İlham Əliyev, bununla həm də, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu dünya ictimaiyyətinə xatırlatdı. Hələ 2019-cu ildə Türk Şurasının Zirvə görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev “Zəngəzur türk coğrafiyasının bölünməsinin əsas nöqtəsidir”, – deyə bəyan etmişdi.

Türk dövlətləri bu dəhliz sayəsində yenidən birləşir. Türkiyə ilə Azərbaycan arasında quru sərhəddi yaranır və məsafə 400 kilometrə qədər qısalır. Bununla yanaşı, Türkiyə, Rusiya, İran arasında iqtisadi əlaqələrdəki bütün maneələr aradan qalxacaq.

Zəngəzur dəhlizi ilə yeni fürsətlər yarandı. Həmçinin, Naxçıvandan Azərbaycana birbaşa dəmir– yolu çəkiləcək ki, bu da, gediş-gəlişin tam bərpasını təmin edəcək.

Bu dəhliz, Türkiyə üçün də böyük əhəmiyyət kəsb edir. Belə ki, dəhliz vasitəsilə Türkiyə Orta Asiyadan Çinə qədər uzanan yeni logistik kanala sahib olacaq. 2017-ci ildə Türkmənistandan Türkiyəyə çəkilməsi nəzərdə tutulan, lakin maliyyə problemləri ucbatından həyata keçirilməyən boru kəməri layihəsi Azərbaycandan Türkiyəyə çəkilə bilər.

Zəngəzur dəhlizi Avrasiya məkanını bir-birinə birləşdirən çox mühüm dəhlizdir. Həm Qafqazın, həm də Mərkəzi Asiyanın qapısıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu dəhlizin bərpası ilə əlaqədar razılığı “Azərbaycanın növbəti böyük zəfəri və türk dünyasının birləşmə nöqtəsi” adlandırıb.

***İmran ƏLİYEV***
***“Xalq qəzeti”***